UOT 781 **M U S İ Q İ  S Ə N Ə T İ**

**Kamilə Dadaş-zadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor**
**F-mail: kamila.dadashzade@gmail.com**

# EPİK YARADICILIĞIN ARAŞDIRILMASININ KOQNİTİV ASPEKTLƏRİ

**Xülasə:** Erkən epik yaradıcılığın öyrənilməsi sahəsində çağdaş elmi paradiqmanın tərkib hissəsi olan konsept nəzəriyyəsinin tətbiqi bir çox ontoloji və qnoseoloji problemlərin həllinə imkan yaradır. Eposun musiqi dilinin diaxronik baxımdan araşdırılmasında koqnitivizmin bəzi metodoloji prinsip və anlayışlarının (konsept, topos, freym və s.) tətbiqi səmərəli ola bilər. Məqalədə elmi ədəbiyyatda öz geniş tətbiq dairəsi ilə seçilən bu anlayışların müxtəlif yozumları, metodoloji baxımdan fərqli təfsirləri nəzərdən keçirilir.

**Açar sözlər**: koqnitivizm, epik yaradıcılıq, konsept, topos, freym, konseptsfera

Erkən epik yaradıcılığın öyrənilməsi sahəsində çağdaş elmi paradiqmanın tərkib hissəsi olan konsept nəzəriyyəsinin tətbiqi bir çox ontoloji və qnoseoloji problemlərin həllinə imkan yaradır. Heç şübhəsiz ki, eposun musiqi dilinin diaxronik baxımdan araşdırılmasında koqnitivizmin bəzi metodoloji prinsip və anlayışlarının (konsept, topos, freym və s.) tətbiqi səmərəli ola bilər. İlk əvvəl qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda öz geniş tətbiq dairəsi ilə seçilən bu anlayışların müxtəlif yozumları, metodoloji baxımdan fərqli təfsirləri mövcuddur. Biz yalnız epik yaradıcılığın araşdırılması prosesində qaldırılan problemlərin həllinə işıq sala biləcək bəzi metodoloji prinsiplər üzərində dayanmaq fikrindəyik.

Koqnitiv linqvistikanın əsas anlayışlarından biri olan konsept (lat. conceptus – anlayış, məfhum, təsəvvür) - biliklərin mental səviyyədə tarixən formalaşmış təfəkkür vahididir. Bu cür vahidlərdən ibarət olan mürəkkəb sistem, yəni hər bir dildə mövcud olan bütün konseptlərin cəmi həmin dilin konseptsferasını (D. Lixaçovun terminidir) təşkil edir. Akademik D. Lixaçovun gəldiyi qənaətə görə, hər bir xalqın konseptsferasının zənginliyi bilavasitə onun mədəniyyəti, folkloru, incəsənəti, elmi və dininin özəlliklərindən asılıdır (3,4). Bu baxımdan konseptsferanı hər bir xalqın mədəni özünəməxsusluğunun təmərküzləşmə sahəsi adlandırsaq, zənnimizcə, yanılmarıq.

Konsept anlayışının mahiyyəti Y. Stepanovun mülahizələrində dolğun şəkildə öz əksini tapmışdır: “Konsept — insan təfəkküründə mədəniyyət hadisəsinin yığcam şəkildə inikasıdır. Konsept vasitəsilə mədəniyyət insan beyninə daxil olur, həmin vasitə ilə də insan özü mədəni prosesə müdaxilə edə bilir. Konsept, sözü əhatə edən anlayışların, biliklərin, hisslərin və assosiasiyaların cəmidir. Məfhumlardan fərqli olaraq konseptlər yalnız təfəkkür sahəsinə deyil, həm də hisslər aləminə aiddir” (6, 44). Düşünürük ki, konsept anlayışının bu cür geniş təfsiri onun etnomusiqişünaslıq sahəsində də səmərəli şəkildə təfsiri üçün imkan yaradır.

Son dövrdə konsept anlayışı daha çox koqnitiv linqvistika və linqvokulturologiyanın tədqiqat obyektinə çevrilmişdir. S. Vorkaçova görə, “konsept - ifadə planında leksik-semantik paradiqma şəklində təqdim olunan və müəyyən mədəni amillərdən meydana gələn məna vahididr” (2, 49). Bu müddəanı araşdırdığımız obyektə şamil etdikdə, qeyd edə bilərik ki, əsrlər boyu epik mühitdə məhz semantik paradiqma şəklində mövcud olan və özündə etnik mental xüsusiyyətləri əks etdirən müəyyən konseptlər biçimlənmişdir. Zamanın təsirinə, tarixin gərdişinə məruz qalan bu məna vahidləri çağdaş epik ifaçılıqda da özünəməxsus şəkildə təfsir edilməkdədir.

Linqvomədəni konseptin məna planı ən azı iki semantik qrupdan ibarətdir. Birinci qrupa konseptin dildə realizə olunmuş bütün variantları üçün ümumi olan və leksik-semantik paradiqmanı təşkil edən semalar daxildir. Həmin semantik vahidlər konseptin prototipik əsasını təşkil edir. İkinci qrup isə, heç olmazsa, bir neçə variant üçün ortaq olan və özündə dil daşıyıcısının mental xüsusiyyətləri- ni əks etdirən, etnosemantik spesifikası ilə səciyyələnən semantik vahidlərdən ibarətdir.

Bəzi hallarda konsept anlayışının mahiyyəti daha çox kulturoloji aspektdə təfsir edilir. Məsələn, Y.Stepanovun elmi konsepsiyasında konsept ilk növbədə mənəvi mədəniyyətin tərkib hissəsi kimi təqdim edilmişdir. Alimin fikrincə, konseptlər ayrı-ayrı fərdlərin təfəkküründə mental səviyyədə əks olunmuş mədəni mühitə xas olan vahidlərdir. Səciyyəvidir ki, konseptin quruluşunda, onun daxili strukturunda müxtəlif tarixi dövrlərin izləri, özəllikləri qorunub saxlanılır. Diaxronik baxımdan fərqli olan həmin məna qatlarını Y.Stepanov aşağıdakı kimi təsnif etməyi təklif etmişdir: a) müasir dövrün dil daşıyıcıları üçün aktual olan əsas xüsusiyyətlər; b) ayrı-ayrı sosial qrupların nümayəndələri üçün səciyyəvi olan əlavə çalarlar; c) konseptin dərin tarixi qatlarını əks etdirən etimoloji özəlliklər.

Y.Stepanov tərəfindən irəli sürülən konsept təkamülünün semiotik sıraları haqqında mülahizələr apardığımız araşdırma kontekstində böyük önəm daşıyır. İrəlidə görəcəyimiz kimi, epik sənət müstəvisində təşəkkül tapmış konseptlər za-

man və məkan baxımından yekcins deyil. Onlar məzmun etibarilə müxtəlif tarixi dövrlərə mənsub olan semantik sıralardan, qatlardan ibarətdir.

Konsept nəzəriyyəsinin inkişafında A.Vejbitskayanın böyük xidmətləri olmuşdur. Alimin elmi konsepsiyasına əsasən, konsept obyektiv varlığın müxtəlif hadisələrini dil səviyyəsində ifadə edən məfhumdur. A.Vejbitskayanın (1) araşdırmalarına görə, elm tarixində gerçəkliyin kateqoriyalar üzrə bölünməsi iki üsulla həyata keçirilir: "klassik" (Aristotel) və "prototipik" (E.Roş, L.Vitqenşteyn). Apardığımız araşdırmaların metodoloji bazasında ikinci üsulun önəmini nəzərə alaraq, onun üzərində bir qədər ətraflı dayanaq. E.Roşun fikrincə, obyektiv varlığın kateqoriyalar üzrə təsnifatı prosesi anlayışlar deyil, prototiplər səviyyəsində baş verir (10). Həmin nəzəriyyəyə əsasən, hər bir kateqoriyanın mərkəzində prototip, onun periferiyasında isə ikinci dərəcəli ünsürlər durur. Səciyyəvidir ki, konseptin quruluşunda, onun daxili strukturunda müxtəlif tarixi dövrlərin özəllikləri qorunub saxlanılır. Prototipik nəzəriyyənin bir çox problemləri öz mənşəyini konsept anlayışının klassik təfsirindən götürür (13).

A.Vejbitskayanın gəldiyi qənaətə görə, prototip konsepsiyası dil hadisələrinin semantik təfsirini xeyli dərəcədə zənginləşdirə bilər. Apardığımız araşdırma kontekstində A.Vejbitskayanın elmi konsepsiyasının bir müddəasının önəmini xüsusi olaraq vurğulamaq istərdik. Tədqiqatçının qeyd etdiyi kimi, hər bir xalqın konseptsferası özünəməxsusluğu ilə seçilir. Konseptlərin milli spesifikaya malik olması faktı müxtəlif mədəniyyət tipləri arasında müqayisəli təhlil aparmaq, onların arasında həm ortaq, həm də fərqli cəhətləri üzə çıxarmaq üçün imkan yarada bilər.

Konsept anlayışı ilə çox sıx şəkildə bağlı olan "freym" istilahı "biliklərin struktur baxımından təzahürü"nü (7,62) bildirir. Bu nöqteyi-nəzərdən müəyyən mürəkkəb konseptlər bir neçə freym şəklində də ifadə oluna bilər.

Etnomusiqi mədəniyyəti sahəsində konsept nəzəriyyəsinin tətbiqi bir çox ontoloji və qnoseoloji problemlərin həlli üçün yardımçı funksiya vəzifəsini icra etmək iqtidarındadır. Zənnimizcə, konseptsfera kimi mürəkkəb elmi kateqoriya daha dolğun şəkildə sinkretik təbiəti ilə seçilən epik sənətdə təzahür etmişdir. Bu baxımdan, epik əsərlərin müəyyən seqmentlərinin, etnosun özəl xüsusiyyətlərini özündə qoruyan və əks etdirən vahidlər kimi araşdırılması maraqlı elmi nəticələr əldə etmək üçün imkan yarada bilər.

Musiqişünaslıqda prototipik nəzəriyyənin müddəaları bəzi hallarda janr sistemi ilə əlaqədar aparılan araşdırmalarda tətbiq edilir. Məsələn, Avropa klassik musiqi janrlarının təşəkkül dövründən bəhs edən Y.Nazaykinski qeyd edir ki, onlardan bəzilərinin mənşəyi hətta musiqinin bir sənət kimi formalaşmasından əvvəl mövcud olan prototiplərlə bağlıdır (5, 56).

Beləliklə, konsept anlayışının müxtəlif təfsirlərinin fərqləndirici cəhətlərinə baxmayaraq, onların ortaq məxrəci ondan ibarətdir ki, konsept insan təfəkküründə gerçəkliyin, obyektiv varlığın inikasıdır. İncəsənətdə, dildə və s. sahələrdə işarə qismində təzahür edən konsept önəmli mədəni informasiyanın, milli-mental özəlliklərin saxlanc yeridir.

Koqnitiv təbiətə malik olan konseptdən fərqli olaraq topos mahiyyət etibarilə kommunikativ sahəyə aiddir. Onları birləşdirən cəhət isə ondan ibarərdir ki, hər iki anlayış vasitəsilə mədəniyyət və incəsənət hadisələrinin dərin məna qatlarını və funksional özəlliklərini təsvir, tədqiq və təhlil etmək mümkündür. Çağdaş elmi paradiqmanın bu iki mühüm anlayışının müqayisəsini davam etdirərək, qeyd etmək lazımdır ki, konseptsfera daha çox batin, toposfera isə zahiri aləmlə bağlıdır. Başqa sözlə, konseptlər dilin daşıyıcılarının təfəkküründə, toposlar isə onların nitqində təzahür edir.

Topos, mətnin inkişaf qaydalarına, onun diskursuna aid olan kateqoriyalar sırasına daxildir. Kommunikativ modellər qismində çıxış edən toposlar funksional baxımdan müəyyən tipoloji situasiyalarla bağlıdır. Mənşə etibarilə qədim yunan ritorikası ilə əlaqəsi olan "topos" və "topika" anlayışlarının tətbiqi musiqi elmində kifayət qədər əski ənənələrə malikdir. Q.Yunqun qeyd etdiyi kimi, hələ XVIII əsrdə İ. Haynixem və İ. Mattezonun musiqi-nəzəri əsərlərində Aristote- lin "Topika"sından gələn "loci topici" termini istifadə olunmuşdur. Musiqişünaslıqda həmin istilahın yenilənməsi XX əsrin son onilliklərinə təsadüf edir. Bu dövrdə sənətşünaslıqda və ədəbiyyatşünaslıqda "topos" anlayışının daha geniş kontekstdə təfsiri ilk növbədə Ernst Robert Curtiusun elmi müddəalarının təsiri altında formalaşmışdır. Alimin konsepsiyasına əsasən, "klişe halına düşmüş fikir və ifadələr" olan toposlar incəsənət tarixində əsrdən əsrə ötürülən və hər mərhələdə yeni semantik çalarlarla zənginləşən qəlibləşmiş formullar, obrazlar və rəmzlərdir (8,80). Gördüyümüz kimi, elmi ədəbiyyatda "topos" termini çox geniş təfsiri ilə seçilir. Tədqiqatımızın metodoloji bazasında biz toposun kommunikativ fəaliyyətin vahidi kimi təfsirinə üstünlük veririk. Apardığımız araşdırma kontekstində, fikrimizcə, L.Kirillina tərəfindən irəli sürülən bəzi müddəaların tətbiqi daha məqsədəuyğundur. Topošları "musiqi diskursunun predmeti kimi" təfsir edən L.Kirillina qeyd edir ki, topika, "məzmun vahidlərinin onlara uyğun olan müəyyən ifadə vasitələri ilə çarpazlaşdığı" sahədir.

Konsept və topos anlayışları ilə çox sıx şəkildə bağlı olan "freym" termini öz mürəkkəbliyi və müxtəlif yozumları ilə seçilir. Ümumi şəkildə qeyd edə bilərik ki, freym "biliklərin struktur baxımından təzahürü"nü (7, 62) bildirir. Bu nöqteyi-nəzərdən müəyyən mürəkkəb konseptlər bir neçə freym şəklində də ifadə oluna bilər.

Freym semantikasının (frame semantics, frame-and-scene analysis)(12) müddəalarına görə, müəyyən situasiyalar, obrazlar, konseptlər konkret quruluş - freym ilə anımlar (assosiasiyalar) yaradır. Freym nəzəriyyəsinin inkişafında mühüm rol oynayan M.Minskinin gəldiyi qənaətə görə isə, insanın bilikləri müəyyən struktur hüceyrələr, yəni stereotip situasiyalarda yaranan freymlərin cəmindən ibarətdir (9).

Fikrimizcə, bütün bu nəzəri müddəalar və metodoloji prinsiplər eposun erkən formalarında özününizam prinsipləri və qeyri-xəttiliyin təzahür formalarının araşdırılması üçün zəmin yarada bilər.

**Ədəbiyyat siyahısı:**


1. Вежбицкая А. Прототипы и инварианты// Вежбицкая А. Язык. Культура. Познание. М., 1996. – с. 201 – 236
2. Воркачев С. Концепт счастья: понятийный и образный компоненты // Известия РАН. Серия лит-ры и языка. 2001, т. 60, с. 47-58
3. Лихачев Д. Концептосфера русского языка // Известия РАН. Сер. Лит. И яз. – М., 1993. – т. 52, №1. С. 3 - 9
4. Лихачев Д. Концептосфера русского языка// Русская словесность: от теории словесности к структуре текста: антол./ Ин-т народов России; под общ. ред. В. П. Нерознака. – М., 1997. с. 280 - 287
5. Назайкинский Е. Стилистика музыкального произведения. Musiqi dünyası, 2004, 1-2/19, s. 55 – 67
6. Степанов Ю. Константы: Словарь русской культуры, 3-е изд. М.: Академический проект, 2004, с. 42 - 67
7. Стренева Н. Понятийный потенциал термина «фрейм»// Вестник ОГУ №11 (105), 2009
8. Curtius E. R. European Literature and the Latin Middle Ages. New York: Pantheon Books, 1953, 80
9. Minsky. The emotion Machine 2006. Simon& Schuster. New-York)
10. Rosh, Eleanor (1975), “Cognitive representation of semantic categories”, Journal of Experimental Psychology: General, Vol 104 (3), Sep.1975, 192 -233.
11. philoqos/narod. ru/ concept/ stepanov-concept.htm
12. Talmy L. Rubber-sheet cognition in language// Papers from the regional meeting of the Chicago linguistic society Chicago, 1977, V. 13 P. 612-628)
13. Wittgenstein L. Philosphical investigations,UK: Basil Blackwell, 2001

**Кямиля Дадаш-заде**

**КОГНИТИВНЫЕ АСПЕКТЫ ИССЛЕДОВАНИЯ ЭПИЧЕСКОГО ТВОРЧЕСТВА**

**Резюме:** Применение теории концепта - одной из составных частей современной научной парадигмы, может способствовать решению многих атологических и эпистемологических проблем изучения раннего эпического творчества. Такие понятия когнитивизма, как концепт, топос, фрейм могутэффективно применяться, в исследовании с диахронической точки зрения эпоса музыкального языка. В статье рассматриваются разные варианты интерпретации упомянутых терминов, нашедших широкое применение в научной литературе.

**Ключевые слова:** когнитивизм, эпическое творчество, концепт, топос, фрейм, концептосфера

**Kamila Dadash-zadeh****COGNITIVE ASPECTS OF RESEARCHING EPIC CREATIVITY**

**Summary:** The application of the concept theory, which is one of the constituent parts of the modern scientific paradigm, can contribute to solvingmany anthological and epistemological problems in the study of early epic creativity. In the study from the diachronic point of view of the musical languageof the epic, such concepts of cognitivism as concept, topos, frame can be effectively applied. The article discusses different interpretations of these terms,which are widely used in the scientific literature.

**Key words:** cognitivism, epic creativity, concept, topos, frame, conceptosphere

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ellada Hüseynova**